Akademik Tarih ve Düşünce Dergisi
Published by Autumn 2022 / 9-3
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.255

# Aprel İşğalından Sonra Sovet Bolşevik Rejiminin Azərbaycan Xalqının Milli-Mənəvi Dəyərlərinə Qarşı Soyqırımı Siyasəti

**Mais Əmrahov***
**ORCİD:0000-0003-2504-3034**

**Xülasə**

1920-ci il 28 aprel çevrilişi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinə Sovet Rusiyası tərəfindən son qoyuldu. Elə həmin gün Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan edildi. İlk baxışda müstəqil bir dövlət kimi görünsə də yeni yaradımış dövlət tam olaraq Sovet Rusiyasının müstəmələsi idi. Müstəqillik yalnız formal xarakter daşıyırdı. 1922- ci il 10 dekabr tarixində Azərbaycan SSR –in formal müstəqilliyinə də son qoyuldu və Azərbaycan , Gürcüstan, Ermənistandan ibarət Zaqafqaziya Sovet Federativ Sosialist respublikası yaradıldı . Bundan 20 gün sonra isə ZSFSR də daxil olmaqla Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) formalaşdı.Azərbaycan sovetləşdikdən sonra bolşevik Rusiyasının anti-milli, anti-dini siyasəti başlandı. 1929cu idə latın, 1940-cı ildə kiril qırafikalı əlifbaya keçildi. Sovet hakimiyyətinin ilk illərindən etibarən milli adət ənənələr, din rituallar əvvəlcə lağ obyektinə çevrildi . sonra isə qadağan edildi. Həmin dövrdə müxtəlif dini obyektlər, məxcidlər, mədrəsələr, kişsələr , sinaqoqlar bağlandı.Məqalədə sovet hökümətinin xaqlımıza qarşı anti milli, anti-dini siyasəti, milli ziyalılara və madddi-mənəvi dəyərlərə qarşı siyasətindən bəhs olunur.

**Açar sözlər:** Aprel Işğalı, Bolşevik Rejimi, Azərbaycan Xalqı, Milli-Mənəvi Dəyərlər, Soyqırımı Siyasəti

**Gönderme Tarihi: 24/02/2022** **Kabul Tarihi:25/09/2022**

---

**Professor, AMEA A.A. Bakıxanov adına Azərbaycan Respublikası Tarix İnstitutunun tarix şöbəsinin müdiri, Bki-Azerbaijan, emrahov48@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ƏMRAHOV, M., " Aprel İşğalından Sonra Sovet Bolşevik Rejiminin Azərbaycan Xalqının Milli-Mənəvi Dəyərlərinə Qarşı Soyqırımı Siyasəti", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.748-776.

# The Genocide Policy of The Soviet Bolshevik Regime Against The National-Moral Values of Azerbaijani People After April İnvasion

**Mais Amrahov** *
**ORCID: 0000-0003-2504-3034**

**Abstract**

As a result of the April 28 coup of 1920, the Azerbaijan Democratic Republic was put an end to by Soviet Russia. On the same day, the Azerbaijan Soviet Socialist Republic was established. Although it looked like an independent state, the newly created state was actually a colony of Soviet Russia. Independence was only formal. On December 10, 1922, the formal independence of the Azerbaijan SSR was ended and the Transcaucasian Soviet Federative Socialist Republic was created, consisting of Azerbaijan, Georgia, and Armenia. 20 days later, the Union of Soviet Socialist Republics (USSR), including the USSR, was formed. After the Sovietization of Azerbaijan, the anti-national and anti-religious policy of Bolshevik Russia began. In 1929, the alphabet was changed to Latin, and in 1940, to the Cyrillic alphabet. From the first years of Soviet rule, national customs and religious rituals became objects of ridicule, and then it was banned. During that period, various religious facilities, mosques, madrasahs, kishses, and synagogues were closed. The article talks about the anti-national, anti-religious policy of the Soviet government against our country, policy against national intellectuals, and material and moral values.

**Keywords:** April Invasion, Bolshevik Regime, Azerbaijani People, National- Moral Values, Genocide Policy

**Received Date: 24/02/2022** **Accepted Date: 25/09/2022**

**Professor, ANAS A.A. Head of the history department of the Bakikhanov Institute of History of the Republic of Azerbaijan, Bki-Azerbaijan, emrahov48@mail.ru*

***You can refer to this article as follows:***
ƏMRAHOV, M., " Aprel İşğalından Sonra Sovet Bolşevik Rejiminin Azərbaycan Xalqının Milli-Mənəvi Dəyərlərinə Qarşı Soyqırımı Siyasəti", *Academic Journal of History and Idea*, Vol. 9, Issue 3, 2022, p.748-776.

Academic Journal of History and Idea Vol.9 / Issue 3
Emrahov/ pp 748-776 September 2022

# Политика геноцида режима большевиков против национально-нравственных ценностей азербайджанского народа после апрельского захвата власти

**Маис Амрахов***
**ORCID: 0000-0003-2504-3034**

**Резюме**

28 апреля 1920 года в результате переворота Советской Россией был положен конец существованию Азербайджанской Демократической Республики. В тот же день было объявлено о создании Азербайджанской Советской Социалистической Республики. Хотя на первый взгляд оно выглядело как независимое государство, но на самом деле новообразованное государство было колонией Советской России. Независимость носила формальный характер. 10 декабря 1922 года был положен конец формальной независимости Азербайджанской ССР и была создана Закавказская Советская Федеративная Социалистическая Республика, в состав которой вошли Азербайджан, Грузия и Армения. Через 20 дней был образован Союз Советских Социалистических Республик (СССР), в состав которого вошел и ЗСФСР. После советизации Азербайджана началась антинациональная и антирелигиозная политика большевистской России. В 1929 г. был осуществлен переход на латинскую графику, а в 1940 г. — на кириллицу. С первых лет советской власти предметом насмешек стали национальные обычаи и религиозные обряды, а потом запретили. В этот период были закрыты различные религиозные объекты, мечети, медресе, церкви и синагоги. В статье говорится об антинациональной, антирелигиозной политике советского правительства, о политике направленной против национальной интеллигенции, материальных и моральных ценностей нашего народа

**Ключевые слова:** Апрельский захват, режим большевиков, азербайджанский народ, национально–нравственные ценности, политика геноцида.

**Получено: 24/02/2022** **Принято: 25/09/2022**

---

**Профессор НАНА А.А. Заведующий отделом истории Бакихановского института истории Азербайджанской Республики, Бки-Азербайджан, emrahov48@mail.ru*
ƏMRAHOV, M., “Aprel İşğalından Sonra Sovet Bolşevik Rejiminin Azərbaycan Xalqının Milli-Mənəvi Dəyərlərinə Qarşı Soyqırımı Siyasəti”, *академическая история и мысль*, T.9, NO.3, 2022, с.748-776.

## Giriş

Məqalədə qeyd edilir ki, Azərbaycan xalqının milli suverenlik uğrunda mübarizəsini qısqanclıqla qarşılayan Moskva Azərbaycanda mədəni quruculuq prosesində hakimiyyəti öz əlinə almaq üçün asan əlifba'nın qəbul edilməsini ortaya atdı.

Moskvanın təzyiqi ilə Azərbaycan SSR MİK və Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması haqqında" qərar qəbul etdi. 1929-cu il yanvarın 1-dən yeni əlifbaya keçilməsi rəsmən elan olundu. Yeni əlifbaya keçid respublikada birmənalı qarşılanmadı. Müsavat və İttihad partiyalarının bir sıra nümayəndələri, din xadimləri, ziyalılar yeni əlifbanın tətbiqinə qarşı çıxdılar. Bir sıra rayonlarda açıq çıxışlar baş verdi.

Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyası 1939-cu ilin iyulunda latın əlifbasının kirillə əvəz edilməsi haqqında qanun qəbul etdi, qanun 1940-cı il yanvarın 1-dən qüvvəyə mindi.

Sovet hakimiyyətinin ilk illərində respublika hökuməti dini bayramlarda - *Qurban bayramı*, *Orucluq bayramı*, *Uraza*, katolik və yəhudi pasxa günlərində, *Blaqoveşşeniye* günlərində müxtəlif dinə mənsub adamları işdən azad edildi.

Bakıda Bibiheybət məscidi və Əmircanda Şəmsi Əsədullayev məscidi, müsəlmanların etiqad etdiyi onlarla sitayiş yerləri və pirlər, Ağ şəhərdə Şibayev kilsəsi və Serkovnı küçədə (indiki Vidadi küçəsi) donanma kilsəsi, müqəddəs Məryəm katolik kostyolu, bir çox başqa məbədlər bağlandı, Suraxanı atəşgah məbədi baxımsız qaldı.35 il *Təzə pir* məscidi ilə dinc-yanaşı fəaliyyət göstərən *Qızıllı kilsə* 1935-ci ildə dağıdılaraq, din üzərinə total basqının qurbanı oldu. İslam ocağı və Şərq memarlığının incilərindən biri *Təzə pir* məscidi 1936-cı ildə Bağırovun göstərişi ilə partladıldı. 1934-1938-ci illərdə Azərbaycanda repressiyaya məruz qalanlar arasında din xadimləri də az deyildi.

1920-ci il aprelin 28-də Bakıda, sonralar isə tədricən Azərbaycan qəzalarında hakimiyyəti zorla zəbt edən bolşeviklər, bütün sahələrdə olduğu kimi təhsil sistemində də yeni sovet qaydaları adı altında anti-Azərbaycan maarif və mədəniyyət siyasəti yeritməyə başladılar. Milli təhsil ənənələri nəzərə alınmadan Sovet Rusiyasının ali təhsil sistemi Azərbaycanda həyata keçirilməyə, rus elmi-pedoqoji qüvvələri *qardaşlıq köməyi* adı altında təhsil ocaqlarında yerləşdirilməyə başlandı. 20-ci illərin birinci yarısında ali məktəb tələbələri

və müəllimlər arasında *sinfi düşmən axtarmaq* və onları müxtəlif bəhanələrlə ləkələyib sıradan çıxarmaq, hətta qismən məhv emək xətti nəticəsində onlarla günahsız ali məktəb müəllimləri ifşa edildi.

30-cu illərdən başlayaraq Azərbaycanda ruslaşdırma siyasətini həyata keçirən Moskva regionda özünə möhkəm elmi və mənəvi dayaq yaratmaq məqsədilə rus dilinin məcburi öyrədilməsi xəttini həyata keçirməyə başladı.

Ziyalılar, o cümlədən şairlər və yazıçılar yerli-yersiz təzyiqlərə məruz qaldı, ideya azarına tutulanların qəzəbinə tuş gəldilər. M.Müşfiq, H.Cavid, Y.V.Çəmənzəminli, Əli Nəzmi, C.Cabbarlı və onlarla başqaları ədalətsiz tənqid olundular.

1937-ci ildə 12493 nömrəli iş (alimlərin işi) üzrə alimlərin çoxuna I Türkoloji qurultayda, SSRİ-nin türkdilli respublikalarında keçirilən elmi konfrans və ezamiyyətlərdə iştirakı, türk xalqlarının tarixi, etnoqrafiyası, dili və ədəbiyyatı sahəsində tədqiqatları, ali məktəblərdə türkoloji fənlərin tədrisi və s. kimi iradlar tutuldu. I Ümumittifaq Türkoloji qurultayın iştirakçılarının demək olar ki, hamısı „millətçi", „pantürkist" və „müsavatçı" damğası adı ilə məhv edildilər. I Türkoloji qurultayın Azərbaycan SSR-dən olan 16 nəfər iştirakçısı və təşkilatçısı (Ağamalıoğlundan başqa, o, 1930-cu ildə vəfat etmişdir) repressiyaya məruz qaldı. Azərbaycanda görkəmli və tanınmış alimlərdən B.V.Çobanzadə, X.S.Xocayev, A.M.Tağızadə, A.R.Zifeldt, İ.M.Həsənov, Q.K.Bağırov, H.B.Zeynallı, M.Ə.Ələkbərli, Əli Nazim, Salman Mumtaz, T.A.Şahbazi, V.M.Xuluflu, Q.S.Qubaydullin, C.M.Məmmədzadə və b. repressiya olundular.

Respublikada yaranan qarşıdurma respublikanın ədəbi mühitinə mənfi təsir göstərdi. Nəticədə, Y.Çəmənzəminli, H.Cavid, S.Hüseyn, S.Mümtaz, B.Çobanzadə, T.Şahbazi (Si-murq), Ə.Nəzmi, teatr xadimlərindən A.M.Şərifzadə, Ü.Rəcəb və onlarla digərləri 37-ci illərin repressiyasının qurbanı oldular.

Azərbaycan incəsənəti-musiqi, kino, təsviri və dekorativ sənəti də 20-30-cu illərdə ağır dövrünü yaşadı.

M.C.Bağırov və onun kampaniyasının saxtalaşdırılmış ittihamları nəticəsində bir məhkəmə prosesində 300 nəfərdən artıq partiya və sovet işçisi, o cümlədən 32 rayon partiya komitəsi katibi, 28 rayon icraiyyə komitəsi sədri, 18 xalq komissarı və onların müavinləri, 66 mühəndis, Qızıl Ordu və Hərbi Dəniz Donanmasının 88 komandiri və siyasi işçisi, 8 professor həbs edildi, onlar ya uzun müddətə azadlıqdan məhrum edildi, ya da güllələndilər.

Ümumiyyətlə, 1937-1938-ci illərdə Azərbaycanda saxta itihamlarla 40 minə yaxın adam cinayət məsuliyyətinə cəlb edildi, 1937-1940-cı illərdə orta hesabla hər il 12 min adam həbs olundu. 30-40-cı və 50-ci illərin əvvəllərində 70 mindən çox adam cəza tədbirlərinin qurbanı olmuşdur ki, onların 29 min nəfəri ziyalıdır.

Sovet qadağaları fonunda Azərbaycandaictimai-siyasi fikir tarixi məsələlərinin öyrənilməsinə zəif diqqət yetildi. 1938-ci ildə Stalinin ideoloji rəhbərliyi ilə dərc edilmiş ÜİK(b)P tarixinin qısa kursu" humanitar elmlərin baza qanunu kimi qəbul edildi. Hədsiz geniş miqyas almış zorakılıq, arxiv və digər informasiya mənbələrində xüsusi ciddi rejiminin tətbiq edilməsi ilə müşayiət olunan repressiv məcburiyyət elmi tədqiqatların həm keyfiyyətinə, həm də kəmiyyətinə hədsiz dərəcədə mənfi təsir göstərdi.

1937-1938-ci illərdə məqsədyönlü şəkildə Azərbaycanın repressiyalara məruz qalmış genetik elmi fondun nümayəndələri arasında görkəmli alimlər, orijinal təfəkkür sahibləri *Ruhulla Axundov, Salman Mümtaz, Ələsgər Ələkbərov, İdris Həsənov, Rəşid İsmayılov, Vəli Xuluflu,Hüseynəli Biləndərli, Ağamir Məmmədov, Həsən İmanov, Əli Nazim (Mahmudzadə), Bəkir Çobanzadə, Əkrəm Cəfərov (Cəfər), Qazis Qubaydullin, Əhməd Əhmədov, Vahab Həsənzadə, Cavad Bağırov, Məmmədhəsən Baharlı (Vəlili), Aleksandr Bukşpan, Qəhrəman Qaraqaşlı, Mövsüm Salamov, Balabəy Həsənbəyov, Mustafa Vəkilov, Məcid Quliyev, Yusif Rəhimli, Olqa Sokolovskaya, İsgəndər Sitaşi, Yakov Hummel, Artur Zifeldt-Simumyaqi, İbrahim Əminbəyli, Əli Hüseynzadə, Panteleymon Juze, İbrahim Uaruar, Zinyətşah Zakirov, Mariya Quliyeva, Abbas Yusifov, Baba Əsgərov, İsrafil Kazımov, Əbdüləziz Salamzadə, Əli Məmmədbəyov, Əlisöhbət Sumbatzadə, İsrafil Axundov, Boris Tixomirov, Maqsud Məmmədov, Əli Səbri Qasımov, Əhməd Kazımov, Əşrəf Quliyev, Məcid Həmzəyev, Əbülfəz Axundov, Mikayıl Hüseynov, Xaim Qarber, Anatoliy Çiçikalov* kimi yüzlərcə istedadlı alim, elm və maarif xadimləri vardı. Azərbaycanda ictimai elmlərin təməlini qoyan bu insanların hər biri özlərini bütünlüklə elmə, öz xalqına həsr etmişdi. *30-40-cı illərdə Stalin repressiyaları nəticəsində misilsiz itkilər verən təkcə ziyalılar deyil, bütün milli mədəniyyətimiz oldu.* Bununla belə, müharibədən əvvəlki illərdə alimlərin kütləvi şəkildə repressiya edilməsinə baxmayaraq, bütövlükdə bu illər ziyalıların, o cümlədən onun ən mühüm hissələrindən biri olan elmi kadrların yaranması ilə yadda qaldı, Azərbaycan ziyalılarının nümayəndələri respublikanın elmi, iqtisadi və mədəni inkişafına layiqli töhfələr verməyə çalışdılar.

**1-Yeni əlifba uğrunda mübarizə**

Azərbaycan xalqının milli suverenlik uğrunda mübarizəsini qısqanclıqla qarşılayan mərkəz *quldur-qaçaq dəstələrini* ləğv etdikdən sonra milli-mədəni irsə qarşı *total müharibə* elan etdi.

Azərbaycanda mədəni quruculuq gedişində qarşıya əlifba məsələsi çıxdı. Sovet hakimiyyəti qurulanadək Azərbaycanda ərəb əlifbasından istifadə olunurdu. Sovet hakimiyyəti qurulmasının ilk günlərindən Azərbaycan dilində çap və nəşr işinin inkişafı məsələsi bütün kəskinliyi ilə qarşıda dururdu. Mədəni quruculuğun bu mühüm probleminin həlli yeni, daha asan əlifba'nın qəbul edilməsini tələb edirdi.[1] Bu səbəbdən də, mədəni qurucluq, xüsusilə asan əlifba'nın qəbulu ilə əlaqədar 1920-ci ilin noyabrında Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında əlifba islahatı üzrə komissiya yaradıldı.[2] 1922-ci il martın 6-da Azərbaycan K(b)P-nın plenumu Azərbaycan əlifbasını latın yazı qrafikasına keçirmək üçün S.Ağamalıoğlunun başçılığı ilə xüsusi komissiya yaratdı.[3] Bu komissiyanın bazasında 1922-ci ilin mayında əlifbanın latınlaşdırılması işini aparan Yeni Türk Əlifbası (YTƏ) Daimi Komitəsi yaradıldı. Onun tərkibinə Səmədağa Ağamalıoğlu (sədr), Xudadat bəy Məlik-Aslanov, Əhməd Pepinov, Əli Tağızadə, Sultan Məcid Əfəndiyev, Fərhad Ağayev, Vəli Xuluflu, Teymur Hüseynov və digər görkəmli Azərbaycan ziyalıları daxil idilər.[4] Ərəb əlifbasının latınla əvəz edilməsi müsəlman dünyası ölkələrində, həmçinin qonşu dövlətlərdə böyük əks-səda yaratdı. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MİK-nin qəbul etdiyi *Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında* dekretə uyğun olaraq, bütün idarə və təşkilatlara kargüzarlığı həm əski, həm də yeni əlifbada aparmaq barədə göstəriş verildi.[5]

Yeni əlifbaya keçid respublikada birmənalı qarşılanmadı. Müsavat və İttihad partiyalarının bir sıra nümayəndələri, din xadimləri, ziyalılar yeni əlifbanın tətbiqinə qarşı çıxdılar. Bir sıra rayonlarda açıq çıxışlar baş verdi. Latın əlifbasının tətbiq olunmasına din xadimlərindən, bəzi imtiyazlı ictimai xadimlərdən, qatı millətçi əhvali-ruhiyyəli ziyalılardan,

---

[1] *Obzor deyatel'nosti pravitel'stva Azerbaydzhana za,* 1922-1923 gg, Baku 1924,c.235.
[2] Su Azerbaydzhana, 1924, №6, c.145.
[3] *Azərbaycan Respublikası Dövlət Arxivi,* (AR DA) Fond №57, siyahı№1, iş№21, vərəq – 71.
[4] Tamilla Musayeva, *Kul'tura Azerbaydzhana na rubezhe epokh (20-30-yye gody KHKH stoletiya,* Baku 2015, c 101.
[5] Otchetnyye materialy Bakinskogo komiteta AKP XIV partkonferentsii, Baku, 1925, str. 40.

mühafzəkar partiya və sovet işçilərindən də müqavimət göstərənlər var idi[6].Yeni əlifbaya qarşı çıxanlardan bəziləri bildirirdilər ki, ərəb əlifbasından imtina edilməsi qədim mədəniyyətdən imtina edilməsi deməkdir. Ancaq opponentlər geniş xalq kütləsinin ərəb əlifbasını bilməməsini, xalqın savadlanması üçün daha çevik qrafikanın tətbiqinin vacibliyini və bir sıra ölkələrin də yeni əlifbaya keçmələrini nəzərdən qaçırmışdılar.

Yeni əlifbanın tərəfdarları ilə onun əleyhdarları arasında mübahisədə yeni əlifba ilə nəşr olunan Yeni yol qəzeti mühüm rol oynadı. Yeni yol qəzeti minlərlə fəhlə və kəndli içərisində yayılır, geniş oxucu kütlələrinə yeni əlifbaya keçməyin əhəmiyyətini təbliğ edirdi.

Əlifba məsələsini müzakirə etmək üçün türkdilli xalqların qurultayını çağırmaq zərurəti meydana çıxdı. Azərbaycan Yeni Türk Əlifbası (YTƏ) Komitəsi Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti ilə birlikdə Türkoloji qurultay çağırmaq qərarına gəldi.

Birinci Ümumittifaq Türkoloji qurultayı 1926-cı ilin fevralında Bakıda açıldı. Fevralın 26-dan martın 5-dək davam edən və sovetlər birliyində yaşayan türkdilli xalqların əksəriyyətinin təmsil olunduğu qurultayda 131 nümayəndə (onlardan 93 nəfəri türkdilli idi), o cümlədən Azərbaycan nümayəndələri Səmədağa Ağamalıoğlu, Mustafa Quliyev, Əhməd Pepinov, Bəkir Çobanzadə, Ruhulla Axundov, Pənah Qasımov, Hənəfi Zeynallı, Əli bəy Hüseynzadə, Fərhad Ağayev, Cəlil Məmmədquluzadə, Cabbar Məmmədzadə, Ayna Sultanova və b. iştirak edirdilər.

Moskva və Sankt-Peterburqdan görkəmli şərqşünaslar S.R. Oldenburq, A.N. Samoyloviç, M.P. Pavloviç, P.N.Poppe və b., Berlin və Kildən Radebolt Valter, Menntsel Teodor Teodoroviç, Türkiyədən Mehmet Fuad Köprülüzadə qurultayın iştirakçıları idi.[7]

Qurultay ərəb əlifbasının islahatı və latın əlifbasının qəbul edilməsi, milli terminologiyanın yaradılması və türkdilli xalqlar üçün ədəbi dil, ana dilinin tədrisi metodikası, diyarşünaslıq, türk dillərinin orfoqrafiyası haqqında məsələləri müzakirə etdi. Ancaq nümayəndələr içərisində yeni əlifbanın tətbiq edilməsinin əleyhinə çıxış edənlər də var idi. Baytursunovun başçılığı ilə Qazaxıstan nümayəndələri yeni əlifbanın əleyhinə çıxış etdilər. Ancaq qurultay Azərbaycanda, həmçinin digər respublika və vilayətlərdə yeni əlifbanın tətbiqi ilə görülən işlər haqqında bəyanat verdi.

1926-cı il martın 7-də Azərbaycan Yeni Türk Əlifbası (YTƏ) Komitəsi yeni əlifbanı qəbul etmiş respublika və vilayətlərin nümayəndələri ilə birlikdə müşavirə keçirdi.

---

[6]T. Musayeva ,*a.g.e,* s.121.
[7]T. Musayeva, *a.g.e.,* s.109-111.

S.Ağamalıoğlu (sədr), F.Xocayev, B.Qulbəşərov, M.A.Aytakov və başqalarının daxil olduğu xüsusi komissiya 1927-ci ilin iyununda Bakıda Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin (YTƏ ÜMK) təsis plenumu keçirilməsini təşkil etdi.[8] Həmin plenum *Yeni türk əlifbasını həyata keçirmək üzrə Ümumittifaq Komitəsi haqqında Əsasnamə* qəbul edərək, onun hüquq və səlahiyyətlərini, məqsəd və vəzifələrini müəyyənləşdirdi.Ümumittifaq Komitəsinə Azərbaycandan S.Ağamalıoğlu, T.Hüseynov, M.Quliyev, R.Axundov və H.Cəbiyevin namizədlikləri irəli sürüldü. Plenumda komitənin hüquq və səlahiyyətlərini, məqsəd və vəzifələrini müəyyən edən Yeni əlifbanın tətbiq edilməsi üzrə Ümumittifaq Komitəsi haqqında Əsasnamə" qəbul edildi.[9]

Azərbaycan MİK və Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də *Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunmasıhaqqında* qərar qəbul etdi.[10] Azərbaycan MİK-nın IV sessiyası 1929-cu il oktyabrın 11-də Azərbaycan MİK və XKS-nin 1928-ci il 21 iyul tarixli qərarını təsdiq etdi və onu həyata keçirilməsi üçün xüsusi komissiya yaratdı. Komissiyanın tərkibinə S.Ağamalıoğlu (sədr), Q.Musabəyov, Ə.H.Qarayev, A.Məmmədov, İ.Konuşkin, Q.Hüseynov, K.İşkova və M.Quliyev daxil oldular. 1929-cu il yanvarın 1-dən Azərbaycan SSR-in yeni əlifbaya keçməsi rəsmən elan olundu.[11]

Yeni əlifbaya etiraz edənlər də oldu. Türkiyədə məskən salmış mühacirlər İstanbulda nəşr etdirdikləri Yeni Qafkasiya qəzeti vasitəsilə Azərbaycanda ərəb əlifbasının tərəfdarlarını fəal müdafiə etdilər. Azərbaycanda sovet hakimiyyətini devirmək və onu Türkiyəyə birləşdirmək məqsədini qarşıya qoymuş Gənc Azəri gənclər təşkilatı yeni rejimin millətin keçmişinə qarşı yönəldilmiş tədbir hesab edərək yeni əlifbanın tətbiqini boykot etdi. 1930-cu ildə Nuxa-Zaqatala rayonunda yeni əlifba və kollektivləşməyə qarşı birgə açıq çıxışlara cəhdlər oldu, hətta yeni əlifbanın fəal tərəfdarlarının, bir sıra müəllimlərin öldürülməsi halları da baş verdi. Əlbəttə, qədim mədəniyyət abidəsi olan ərəb əlifbasından imtina etməmək də olardı.

Yeni əlifbanın Azərbaycanda ilkin tətbiq olunması xəbəri onun sərhədlərindən kənara çıxdı. Yeni əlifbaya keçilməsi hərəkatı Türkiyədə də başlandı. 1928-ci ilin əvvəlində Əş-Şura qəzeti xəbər verirdi ki, Türkiyə ictimaiyyətinin səlahiyyətli nümayəndələrinin İstanbulda keçirilən konfransı qərara almışdı ki, türk dili latın əlifbasından istifadə etməlidir. Həmin ilin iyununda məclisin sessiyası yeni əlifbaya keçilməsini hazırlamaq üçün xüsusi komissiya

[8]T. Musayeva, *a.g.e.,* s.117.
[9]T. Musayeva, *a.g.e.,* s.117.
[10]*Azərbaycan Respublikası Dövlət Arxivi,* (AR DA),1, f.379,siy.16, iş.70, v.11, 225.
[11]*Azərbaycan Respublikası Dövlət Arxivi,* (AR DA),*a.g.e.,* 1, f.379,siy.16, iş.70, v.11, 225.

ayırdı, payızda isə Türkiyə latın əlifbasına keçdi. İranda çıxan Afitabi-Şərq (Şərqin Günəşi) qəzeti Azərbaycanda latın əlifbasının uğurlarına istinadən İranda da əlifba islahatının zəruriliyini qeyd etmişdir.[12]

Vahid şəklə salınmış latın əlifbası Azərbaycanda 1932-ci ilin iyununda qəbul edildi. Ancaq 30-cu illərin əvvəllərində diqqətlə hazırlanmış və bir çox cəhətdən təkmilləşdirilərək vahid şəklə salınmış latın əlifbası təəssüf ki, uzun müddət davam etmədi. Artıq 30-cu illərin ortalarında Mərkəzin təkidli diktəsi əsasında Azərbaycanda rus-kiril yazı qrafikasına keçilməsi uğrunda hərəkat başlandı. 1938-ci ilin martında ÜİK(b)P və SSRİXKS qeyri-rus məktəblərində rus dilini icbari qaydada öyrənmək haqqında xüsusi qərar qəbul etdi. Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyası 1939-cu ilin iyulunda latın əlifbasının kirillə əvəz edilməsi haqqında qanun qəbul etdikdən sonra (bu qanun 1940-cı il yanvarın 1-dən qüvvəyə mindi) rus dilinin fəaliyyət dairəsi daha da genişləndi.[13]

Rus qrafikasına keçilməsinə heç bir zəruriyyət yox idi, bu proses hakim şovinist iddiasından doğan, əslində məcburi tədbir idi. Beləliklə, tarixən qısa bir zamanda Azərbaycanda iki dəfə əlifba dəyişildi.20-ci illərin əvvəllərində Azərbaycanda savadsızlığın ləğvi, mədəni inqilab pərdəsi altında milli dəyərlərə, adət-ənənələrə qarşı mübarizə başlanmışdı. Ərəb əlifbasının dəyişdirilməsi xalqın 1300 illik mədəniyyətinə böyük zərbə vururdusa, 10 il sonra yenidən latından kirilə keçilməsi Azərbaycan ilə Türkiyə arasında mənəvi yaxınlaşmanın qarşısının alınmasına və ruslaşdırma siyasətinə xidmət edirdi. Ərəb və latın qrafikası ilə yazılmış istər dini, istərsə də digər kitabların ucdantutma yandırılması mənəviyyata vurulmuşod idi. Qısa bir müddətdə Azərbaycanda iki dəfə əlifba dəyişikliyi hər hansı üstün cəhətlərinə baxmayaraq milli mədəniyyətimizdə yad təsirlərə yol açdı. Dərsliklər rus dilindən tərcümə edilərək məcburən məktəblərə verildi. Rusdilli ədəbiyyatın sayı artdı. Milli ayinlər dəyişikliklərə məruz qaldı. Milli musiqi ətrafında yaranan diskussiyalar cəbhələnməyə gətirib çıxardı. Onsuz da az savadlı olan əhali qısa zaman kəsiyində qəbul edilmiş əlifba labirintindən xilas ola bilmədi.

XX əsrin 40-cı illərinin başlanğıcında Azərbaycan yazısı rus qrafikası məcrasında inkişaf etdi. Bu, mürəkkəb mahiyyətli, çoxcəhətli proses idi. Onu da inkar etmək olmaz ki, yeni əlifba vasitəsilə rus dilinə, rus mədəniyyətinə, onun elmi potensialına, elmi-texniki fikirlərinə yol açılmışdı. Bu əlifba ilə ana dilimizdə elm və mədəniyyətin bütün sahələrinə aid

[12]Revolyutsiya i natsional'nosti, 1936, №2, str. 64.
[13]*Kommunist* qəzeti, 1938, 11 aprel.

Azərbaycan xalqının mədəni irs xəzinəsinə daxil olan geniş sahəli elmi, texniki, müasir bədii ədəbiyyat xəzinəsi yaradılmışdır.

Kiril əlifbası əsasında Azərbaycan yazısının inkişaf prosesi xalqı öz doğma dili, tarixi kökləri və milli dəyərlərindən ayıra bilmədi.Azərbaycan müstəqillik əldə etdikdən sonra ümummilli lider H.Əliyevin qətiyyəti nəticəsində yenidən latın qrafikasina keçildi. Qadınların yeni cəmiyyət quruculuğuna cəlbi hamar olmadı. Onların partiya, sovet və təsərrüfat işlərinə cəlbi, xüsusi ilə, çadra məsələsi etirazlarla qarşılandı. Bütün ölkədə olduğu kimi, Azərbaycanda da din xadimləri sıxışdırılmağa başlandı.Vətəndaşlara müəyyən hüquq və azadlıqlar verilməsinə baxmayaraq yerli orqanlar, ayrı-ayrı partiya məmurları xalqın yüzillər boyu formalaşmış ənənəvi mənəvi dəyərlərinin köklərini dağıdan inzibati, zorakı metodlar tətbiq etməyə başladılar. Nəticədə sovet hakimiyyətinin ilk illərində respublika hökuməti dini bayramlarda - Qurban bayramı, Orucluq bayramı, Uraza, katolik və yəhudi pasxa günlərində, Blaqoveşşeniye günlərində müxtəlif dinə mənsub adamları işdən azad edilirdi.1924-cü ildə Bakıda yaradılan Allahsız cəmiyyəti bu sahədə xüsusi canfəşanlıq göstərirdi. İbadət yerləri kütləvi surətdə dini idarələrin əlindən alınaraq kitabxanalara, klublara, idman meydançalarına çevrildi. Quran zərərli kitab kimi qadağan edildi. 1929-cu ildə Azərbaycan qəzalarındakı120 məscid binası zəbt edilib məktəblərin istifadəsinə verildi. [14] 1929-1937-ci illərdə Bakıda Bibiheybət məscidi, Əmircanda Şəmsi Əsədullayev məscidi, Ağ şəhərdə Şibayev kilsəsi, müqəddəs Məryəm katolik kostyolu və bir sıra başqa ibadət ocaqları bağlandı.[15]

Müsəlmanların etiqad etdiyi onlarla sitayiş yerləri və pirlər, Ağ şəhərdə Şibayev kilsəsi və Serkovnı küçədə (indiki Vidadi küçəsi) donanma kilsəsi, müqəddəs Məryəm katolik kostyolu, bir çox başqa məbədlər bağlanmış, Suraxanı atəşgah məbədi baxımsız qaldı.[16]

35 il Təzə pir məscidi ilə dinc-yanaşı fəaliyyət göstərən Qızıllı kilsə 1935-ci ildə dağıdılaraq, din üzərinə total basqının qurbanı oldu. İslam ocağı və Şərq memarlığının incilərindən biri Təzə pir məscidi 1936-cı ildə Bağırovun göstərişi ilə partladıldı.[17]

1934-1938-ci illərdə Azərbaycanda repressiyaya məruz qalanlar arasında din xadimləri də az deyildi.[18] Quranı Azərbaycan dilinə ilk tərcümə edənlərdən biri, 83 yaşlı Bakı qazısı Mir Məhəmməd Kərimağa Nargin adasında qətlə yetirildi.[19]

---

[14]Tamilla Musayeva, *Bor'ba za razvitiye narodnogo obrazovaniya v Azerbaydzhane v gody pervoy pyatiletki,* Baku 1964 c.44-45.
[15]*Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi* (ARPİİSSA), Fond №, siyahı №88, iş №3, vərəq- 1-8.
[16]Gaz. Vyshka, 1991, 14 sentyabrya.
[17]Gaz. Bakinskiy rabochiy, 1992, 9 aprelya.

**2-Milli təhsilin təşkilindəəyintilər**

1920-ci il aprelin 28-də Bakıda, sonralar isə tədricən Azərbaycan qəzalarında hakimiyyəti zorla zəbt edən bolşeviklər, bütün sahələrdə olduğu kimi maarif və mədəniyyət sistemində də yeni sovet qaydaları adı altında anti-Azərbaycan siyasəti yeritməyə başladılar. Milli təhsil ənənələri nəzərə alınmadan Sovet Rusiyasının ali təhsil sistemi Azərbaycanda həyata keçirilməyə, rus elmi-pedoqoji qüvvələri qardaşlıqköməyi adı altında təhsil ocaqlarında yerləşdirilməyə başlandı. Kifayət qədər milli kadrların olmaması bəhanə gətirilərək yeni yaradılmış ali məktəblərin tədris-pedaqoji və elmi heyəti tərkibinə digər millətlərin nümayəndələri-rus alimlərindən və beynəlmiləl tələbələrdən-əsasən rus, erməni, yəhudi və digər millətlərdən olan kollekiv heyət cəlb olundu. 1921/1922-ci tədris ilinin əvvəlində Xarkov Tibb İnstitutundan professor S.N. Davidenkov, Moskva Hərbi Tibb Akademiyasından dosent F.N. İlyin, Krım Universitetindən professor N.Q. Uşinski, Moskva Universitetindən professor M.A.Çlenov, Rostov-Don Universitetindən A.O. Kapitski, K.A.Orlov, A.İ. Şişkov, Xarkov Universitetindən professor K.N. Malinovski Bakı Universitetinə dəvət edildilər.[20]

1921-ci ildə professorlardan L.S. Leybenzon, P.P. Lunin, Z.B. Yelyaşeviç,V.P. Smirnov-Loginov, P.Y. Rostovsev, A. Xarazov, İ.İ. Fiqurovski, V.D. Malenyuk, V.S. Uspenski, V.A. Udintsov, 1922-ci ildə professorlardan İ.Q. Yesman, P.İ. Kuznetsov, K.P. Pokrovski, D.İ. Qolovkin, M.V. Dovnar-Zapolski, K.S. Volner, 1923-cü ildə professorlardan N.N.İovlev, S.N.Usatıy Bakı Politexnik İnstitutuna, rus musiqiçilərindən Q.Q.Şaroyeva, A.A. Aleksandrov, Y.A. Dobroxotov, professorlardan M.P. Presman, İ.A. Aysberq, müəllimlərdənY. Qorskaya, M.A. Kolotova, V.A. Nikolski, dirijor İ.İ. Çernyaxovski, violençel çalan L.S. Rastropoviç, Belorusiya Dövlət Konservatoriyasının professoru M.S. Kelman və b. Azərbaycan Dövlət Konservatoriyasına dəvət olundular.[21]1924-cü ildə görkəmli rus alimlərindən akademik İ.M. Qupkin, İ.İ. Meşşaninov, V.V. Bartold, D.V. Qolubyatnikov, N.Y.Maar, professor N.N.Aşmarin, A.N.Samoyloviç, P.K.Juze Azərbaycanın ali məktəblərinə mühazirə oxumağa göndərilərək tədrisin və elmi işlərin təşkilində iştirak etdilər.[22] Bu

---

[18]Cəlal Qasımov, *Yaddaşın bərpası*, Bakı 1999, s.157.
[19]Bəkir Nəbiyev- Şamil Salmanov, *Ədəbiyyat (ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik), İkinci nəşri,* Bakı 1997, s.53.
[20] I.Shirokogorov, Meditsinskiy fakul'tet Azerbaydzhanskogo Gosudarstvennogo Universiteta.(Istoricheskiy ocherk), Baku 1928, c. 3-4.
[21]Azerbaydzhanskaya muzyka, M., 1962, c.281.
[22]Otchet o deyatel'nosti pravitel'stva IV Vseazerbaydzhanskomu s"yezdu Sovetov v 1924 g. Baku 1925.

səbəbdən də, bolşeviklərin rəhbərliyi ilə həyata keçirilən mədəni tədbirlər haqlı olaraq həm daxildə, həm də kommunist rejimindən narazı olub, xaricə mühacirətə getmiş maarifçi-ziyalıların etirazına səbəb oldu.20-ci illərin birinci yarısında ali məktəb tələbələri və müəllimlər arasında sinfi düşmən axtarmaq və onları müxtəlif bəhanələrlə ləkələyib sıradan çıxarmaq, hətta qismən məhv emək xətti nəticəsində onlarla günahsız ali məktəb müəllimləri ifşa edildi.

1920-ci ilin aprel çevrilişindən sonra vətəni tərk edən mühacirlər 1921-1922-ci illərdə İstanbulda M.Ə.Rəsulzadənin başçılığı ilə *Yeni Azərbaycan mədəni-milli komitəsi* adlı təşkilat yaratdılar. Bu təşkilata işğaldan sonra Azərbaycan ali məktəblərindən heç bir əsas olmadan siyasi baxışlarına görə xaric edilmiş varlı bəy, mülkədar və sahibkarların uşaqları, habelə ADR hökumətinin Qərbi Avropaya və Türkiyəyə ali təhsil almağa göndərdiyi tələbələr də qoşuldular.[23] Onlar Rusiyanın Azərbaycanı işğal etməsi, onun siyasi, hüquqi və mədəni müstəqilliyini boğması, ölkənin sovet imperiyası əsarəti boyunduruğu altına salınması ilə razılaşmırdılar. Sovet hökuməti mühacirlərin bu hərəkatına siyasi don geydirərək onları əksinqilabçı təşkilatın üzvləri kimi qələmə verir, təşkilat üzvlərini pozuculuq işləri aparmaqda ittiham edirdi.[24]

1923-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının dəvəti ilə türk dili və ədəbiyyatı sahəsində görkəmli pedaqoq və tədqiqatçı alim İsmayıl Hikmət Türkiyədən Bakıya gələrək Ali Pedaqoji İnstitutda dərs demişdir. O, Bakıda Türkiyə konsulluğu ilə guya sıx əməkdaşlıq etməkdə, konsulluğun tapşırıqlarını yerinə yetirməkdə və antisovet fəaliyyət göstərməkdə günahlandırılaraq Azərbaycanı təcili tərk etməyə məcbur edildi. Yaxud, vaxtı ilə İttihad partiyasının üzvü olan və 20-ci illərdə Ali Pedaqoji İnstitutda çalışan Mustafa Tofiq, Akifbəy, Abdulcəfər Əfəndiyev və b. Türkiyə polis idarəsinin və türk ordusunun keçmiş zabitləri olmaqda, tələbələr içərisində pantürkizm ideyalarını yayan casuslar kimi ittiham olunaraq həbs olundular.[25]

30-cu illərdən başlayaraq Azərbaycanda ruslaşdırma siyasətini həyata keçirən Moskva regionda özünə möhkəm elmi və mənəvi dayaq yaratmaq məqsədilə rus dilinin məcburi öyrədilməsi xəttini həyata keçirməyə başladı. Bu dövrdə Azərbaycan partiya təşkilatları və respublika hökumət orqanları rəhbərlərinin *yüksək beynəlmiləlçilik prinsiplərinə aludəçiliyi və sədaqəti* nəticəsində Azərbaycan ali məktəblərində Moskvanın tələblərinin yerinə yetirilməsi

---

[23]Mais Əmrahov- M.Salahov- N.Əsədov, *Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoj itəhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941- ci illər),* Bakı 2007, s.21.
[24]M. Əmrahov vd., *a.g.e,* s.21.
[25]M. Əmrahov vd., *a.g.e.*, s.21-22.

və Azərbaycan ali məktəblərində qeyri-azərbaycanlı müəllimlərə-ruslara, ermənilərə, yəhudilərə və b. ehtiyac olmadığı halda kadr hazırlığında tələbə kontingentinin qəbulu zamanı qeyri-millətlərin nümayəndələrinin uşaqlarına geniş yer verilməsi nəticəsi idi ki, sonrakı illərdə respublikanın partiya və sovet təşkilatlarında bu qəbildən olan məzunların rəhbər işə keçmələri asanlaşdı və onlar respublika xalq təsərrüfatının müxtəlif sahələrinə rəhbər təyin olundular.

1920-1940-cı illərdə milli-mədəni dəyərlərin ləğvinə başlayan Mərkəzin (Moskvanın) ziyalıların fiziki və mənəvi repressiyasına qarşı Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Mirzə Bala Məmmədzadə, Almas İldırım, Əbdülvahab Yurdsevər, Kərim Odər, Əhməd Cəfəroğlu, Abbasqulu Kazımzadə, Məmmədəli Rəsuloğlu, Hüseyn Baykara, Məmmədsadiq Aran, Ümmülbanu (Banin) və başqaları səslərini ucaldaraq Azərbaycanın işğalına qarşı mübarizəni davam etdirdilər.

Mühacirətdə olan A.İldırım, Kərim Yaycılı, Əli Vulkan, Teymur Atəşli və başqaları poeziya sahəsində, Ə.Ağaoğlu, Ümmülbanu, C.Hacıbəyli, Səməd Ağaoğlu, Qurban Səid nəsr yaradıcılığı sahəsində kamil əsərlər yaratdılar. Ümmülbanunun Nami (1943), Qafqaz günləri (1945), Paris günləri(1947), Ernest Yunkerlə görüş (1951), Mən tiryəki seçdim (1959), Sonra (1961), Yad Fransa (1968), Son ümidin çağırışı (1971), İvan Buninin son höcəti kimi bədii nəsr nümunələri, Səməd Ağaoğlunun Strasburq xatirələri Hürriyyət, Öyrətmən Qafur, Böyük ailə, Hücrədəki adam, Qatırın ölümü, Babamı xatırlarkən və Babamın arkadaşları əsərləri mühacirət ədəbiyyatının ən dəyərli nümunələrindəndir.

M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyəti İstiqlal məfkurəsi və gənclik, Qafqaz türkləri, İstilaçı sosializmin iflası və demokrasinin gələcəyi, Çağdaş Azərbaycan ədəbiyyatı, M.B.Məmmədzadənin, Milli Azərbaycan hərəkatı, Hilal Münşinin, Azərbaycan Cümhuriyyəti, Ə.Cəfəroğlunun, Azəri ədəbiyyatında istiqlal mücadiləsi və s. əsərlərində Azərbaycan xalqının milli-azadlıq mübarizəsi, milli müstəqillik ideyaları əsas yer tuturdu.[26]

Azərbaycan SSR-də isə sovet ədəbiyyatının formalaşması və inkişafı ölkədəki ictimai-siyasi vəziyyətə uyğun davam edirdi. Ziyalılarımız, o cümlədən şairlər və yazıçılar yerli-yersiz təzyiqlərə məruz qalır, ideya azarına tutulanların qəzəbinə tuş gəldilər. M.Müşfiq, H.Cavid, Y.V.Çəmənzəminli, Əli Nəzmi, C.Cabbarlı və onlarla başqaları ədalətsiz tənqid olundular.

---

[26]Mais Əmrahov, *XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı, Ali məktəblər üçün dərslik,* Bakı 2009, s. 363-364.

1937-ci ildə 12493 nömrəli iş (alimlərin işi) üzrə alimlərin çoxuna I Türkoloji qurultayda, SSRİ-nin türkdilli respublikalarında keçirilən elmi konfrans və ezamiyyətlərdə iştirakı, türk xalqlarının tarixi, etnoqrafiyası, dili və ədəbiyyatı sahəsində tədqiqatları, ali məktəblərdə türkoloji fənlərin tədrisi və s. kimi iradlar tutuldu. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində saxlanılan Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun Xalq Daxili İşlər Komissarının müavini Gerasimova ünvanlandığı məktubda deyilirdi: Bu gün üstü açılan və ifşa edilmiş düşmənlərimizin, xüsusən də Çobanzadə, Qubaydullin və başqalarının çoxsaylı məhkəmə ifadələri ilə təsdiqini tapan bir çox işlər əsasını hələ o dövrdən (Türkoloji qurultaydan-red.) götürür. Ona görə də, xahiş edirəm ki, sonrakı istintaq zamanı Azərbaycanda aparılan əksinqilabi pantürkist və panislamist fəaliyyətin tam mənzərəsinin və tarixinin aydınlaşdırılması üçün aşağıdakı faktlara xüsusi diqqət yetirilsin:

*Xalq Maarif Komissarlığı ali və orta məktəblərə əcnəbi müəllimləri qəbul edir, hətta türk müəllim və alimlərini xaricdən də dəvət edir. Müəllim adı altında isə fəaliyyətini genişləndirmək məqsədi ilə türk casusları gəlirlər. Məsələn, İsmayıl Hikmət, Əbdül Cəfər Əfəndi, Mustafa İsmayıl Tefik, Akif bəy, Xalid Səid. Bakıda türk müəllimlərin sayı 25-ə qədərdir. Bu qrupa Türkoloji qurultayla bağlı əvvəlki qeydlərimizdə şəxsiyyətindən kifayət qədər bəhs olunan prof. B.Çobanzadə də daxildir. M.Köprülüzadə və Messaroşla əlaqədədir, əgər buraya yerli müsavatçı pedaqoqları da əlavə etsək, onda nəinki təhsil alan gənclərə, hətta mədəni müəssisələrimizin, xüsusən də Xalq Maarif Komissarlığının rəhbər dairələrinə olan təsir mənbəyi tam aydınlığı ilə aşkarlanar. Bakıda çağırılan I Türkoloji qurultayın təşkilat komissiyasının işində bu, özünü daha aydın şəkildə göstərmiş oldu, xüsusən də şəxsən dəvət olunmuşların siyahısı tərtib olunarkən, oraya bəzi istisnalar edilməklə, SSRİ türk-tatar xalqlarının bütün millətçi-şovinistlərinin, xaricdən isə Köprülüzadə, Əli bəy Hüseynzadə, Messaroş və b. adlarının salınması oldu. Bütün bunlara o da əlavə olunmalıdır ki, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti öz fəallarının tərkibinə yalnız yuxarıda adları çəkilən şəxsləri və onlara yaxın millətçi-şovinistləri daxil etmişdi. Belə olan şəraitdə Azərbaycanın mədəni həyatının millətçi, pantürkist hərəkatla zəbt olunması üçün münbit zəmin yaranmış olur. Təcili olaraq məsələni əsaslı surətdə araşdırıb, siyasətimizi yenidən qurmalıyıq*".[27]

---

[27] *Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi* (ARPİİSSA), Fond №, siyahı, №88, iş №3, vərəq- 1-8.

I Ümumittifaq Türkoloji qurultayın iştirakçılarının demək olar ki, hamısı millətçi, pantürkist və müsavatçı damğası adı ilə məhv edildilər. I Türkoloji qurultayın Azərbaycan SSR-dən olan 16 nəfər iştirakçısı və təşkilatçısı (Ağamalıoğlundan başqa, o, 1930-cu ildə vəfat etmişdir) repressiyaya məruz qaldı. Azərbaycanda görkəmli və tanınmış alimlərdən B.V.Çobanzadə, X.S.Xocayev, A.M.Tağızadə, A.R.Zifeldt, İ.M.Həsənov, Q.K.Bağırov, H.B.Zeynallı, M.Ə.Ələkbərli, Əli Nazim, Salman Mumtaz, T.A.Şahbazi, V.M.Xuluflu, Q.S.Qubaydullin, C.M.Məmmədzadə və b. repressiya olundular.

Respublikada yaranan qarşıdurma respublikanın ədəbi mühitinə mənfi təsir göstərdi. Nəticədə, Y.Çəmənzəminli, H.Cavid, S.Hüseyn, T.Şahbazi (Simurq), Ə.Nəzmi, teatr xadimlərindən A.M.Şərifzadə, Ü.Rəcəb və onlarla digərləri 37-ci illərin repressiyasının qurbanı oldular. Onlardan biri də Salman Mümtaz idi.


*SalmanMümtaz*

Salman Məmmədemin oğlu Əsgərov (Mümtaz) (1884-1941) 1884-cü ildə Nuxada (Şəkidə) anadan olmuşdur. Ailə vəziyyəti ilə əlaqədar Aşqabadda məhəllə məktəbində oxuyan Salman Şərq ədəbiyyatını, ərəb, fars və urdu dillərini öyrənmişdir. Mərkəzi Asiya, Sibir, Zabaykalye və Qafqaz şəhərlərində ticarətlə məşğul olan S.Mümtaz 1908-ci ildən Azərbaycan mətbuatı ilə əlaqə yaratmış, Molla Nəsrəddin, Zənbur, Kəlniyyət, Tuti, Qurtuluş jurnallarında, Səda, Tərəqqi, Günəş, İqbal, Yeni iqbal, Açıq söz qəzetlərində şeir və felyetonları dərc edilmişdir.[28]

Salman Mümtaz 1918-ci ildə Aşqabaddan Bakıya köçdü, AXC-nin mədəni quruculuq işlərində yaxından iştirak etməyə basşladı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra şifahi xalq ədəbiyyatının və klassik irsin toplanması ilə məşğul olan S.Mümtaz 1920-1937-ci illər arasında 24 kitab, 70-dən çox məqalə çap etdirdi, 100-dən çox Azərbaycan və Yaxın Şərq şairi haqqında tədqiqat apardı.


*Əli Nazim*

Alimin Azərbaycan ədəbiyyatı başlığı adı altında çap olunmuş kitabları, çoxsaylı məqalələri, araşdırmaları Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində dəyərli qaynaqlardır. Salman Mümtaz milli baxışlarınagörə təqib olundu, repressiyaya məruz qaldı.Salman

[28]M. Əmrahov, *a.g.e.*, s.234.

Mümtaz və SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Əli Nazim 10 il həbsə məhkum olundular. Salman Mümtaz 1941-ci ildə Orlovsk həbsxanasında güllələndi, bəzi məlumatlara əsasən Əli Nazim də onunla eyni ildə dünyasını dəyişmişdir.

Dəyərli Azərbaycan ziyalılarından biri də T.Şahbazi idi. Şahbazi Tağı Abbas oğlu-Simurq (1892-1938) Bakıda anadan olmuşdur. Mollaxanada və rus-müsəlman məktəblərində oxuyan Tağı Şahbazi Bakı şəhəri birinci realnı məktəbində orta təhsil almış, Xarkov Universitetinin tibb fakültəsini (1918) bitirmişdi. Xarkovda oxuyarkən tələbələrin gizli inqilabi dərnəklərində iştirak etmişdi. 1915-ci ildə RSDFP-nin tələbə fraksiyasına daxil olan T.Şahbazi 1917-ci ildə Bakıya gələrək „Hümmət" təşkilatında çalışmış, qəzetin nəşrində fəal iştirak etmişdi. T.Şahbazi 1918-ci ildə Ukraynaya dönərək Xarkovda qəzet redaktoru olmuş, 1919-cu ildə Moskvada, əvvəl Xalq Milli İşlər Komissarlığının Zaqafqaziya müsəlman şöbəsində katib, sonra Şərq Xalqları Kommunist Təşkilatları Mərkəzi bürosunda şöbə müdiri vəzifəsində çalışmışdır.

Aprel işğalından sonra Bakıya qayıdan Tağı Şahbazi Azərbaycan Xalq Səhiyyə komissarının və xalq maarif komissarının müavini, Mərkəzi İcraiyyə Komitəsinin katibi, Maarif və mədəniyyət jurnalının redaktoru, Ali Pedaqoji İnstitutun direktoru, ADU-nun rektoru və s. məsul vəzifələrdə işlədi. 20-ci əsrin 10-cu illərindən bədii yaradıcılıqla məşğul olan Tağı Şahbazi Simurq bir-birinin ardınca hekayələr nəşr etdirdi, bədii yaradıcılıqla yanaşı, dövri mətbuatda müntəzəm çıxış etdi, İqbal, Doğru söz, Hümmət, Maarif və mədəniyyət, Şərq qadını və s. qəzet və jurnallarda məqalələr dərc etdirdi.[29]

T.Şahbazi 1937-ci il martın 4-də „Gizli milli-təmayülçülər qrupuna məxsusluğuna, əksinqilabi millətçi çıxışlarına görə" partiya sıralarından azad edildi, iyulun 11-də həbs olundu, 1938-ci il yanvarın 2-də güllələnməyə məhkum edildi və hökm yerinə yetirildi. Ona 1956-cı ildəbəraət verildi.

*Mikayıl Rəfili* Ədəbiyyata əksinqilabi pantürkist fikirləri gətirməkdə, Azərbaycan xalq yaradıcılığına qarşı çıxıb gündəmdə olan qərb tendensiyalarını dəstəkləməkdə günahlandırıldı.

1937-ci ilin sonunda ilk azərbaycanlı etnoqraf-arxeoloq, Azərbaycanda arxeologiya və etnoqrafiya elminin banisi, *Ələsgər Ələkbərov* Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun arxeologiya bölməsinin müdiri və SSRİ EA Azərbaycan filialının Tarix, Arxeologiya və

[29]M. Əmrahov, *a.g.e.*, s.234-235.

Etnoqrafiya İnstitutunda Maddi mədəniyyət tarixi bölməsinin rəhbəriƏləsgər Ələkbərov həbs edildi və1938-ci ildə həbsdə dünyasını dəyişdi.

SSRİ EA-nın Azərbaycan filialının Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, dilçi alim *Qulam Bağırov* həbs edilərək 8 il islah əmək düşərgəsinə məhkum edildi (24). SSRİ EA Azərbaycan filialının əməkdaşı, Azərbaycan Dövlət Universiteti əsaslı kitabxanasının direktoru *Ağamir Məmmədov* da əksinqilabi fəaliyyətdə, pantürkizm və trotskiçilikdə ittiham olunaraq 1938-ci ildə güllələndi.[30]

Filologiya elmləri namizədi dilçi alim İdris Həsənovun da taleyi faciəli oldu. Azərbaycan Pedaqoji İnstitutunun və SSRİ EA Azərbaycan filialının professoru İdris Həsənov 1937-ci ilin payızında SSRİ EA-nın Azərbaycan filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunun direktoru təyin olunmuşdu. Onun həbsinə Bəkir Çobanzadə, Vəli Xuluflu, Azərbaycan Pedaqoji İnstitutunda kafedra müdiri olan Abdulla Şərifovun verdikləri ifadələr və onun iş yerindən yazılmış məktub səbəb oldu. XDİK-nin İdris Həsənov SSRİ EA Azərbaycan filialına haqqında verdiyi sorğuya Tarix, Dil və Ədəbiyyat İnstitutunun direktoru Aleksey Klimovun və dil şöbəsinin yeni direktoru Quliyevin imzasıyla verilmiş cavabda qeyd olunurdu ki, institutun keçmiş direktor müavini İdris Həsənov Azərbaycan dilçiliyi sahəsində uzun müddət pantürkist təbliğat və ziyankarlıq işi aparırdı. O, 1926-cı ildə çapdan çıxmış Gəncə əhalisinin dialektində mənsubiyyət şəkilçisiz isimlərin hallanması adlı ilk əsərinin elə birinci sətrindən özünün pantürkist təbliğatını yaymağa başlayır. Onun bütün fikir və mülahizələri vahid qədim türk dilləri'nin varisi olan türk dili haqqında pantürkist-müsavatçı ideyaların davamıdır. Pantürkist ideyaya sadiq olan İ. Həsənov Azərbaycan dilinin qrammatikasına osmanlı formalarını tətbiq etmək fikrində olduğunu söyləyirdi (məsələn, almamış, gəlməmiş, almadan, gəlmədən və s.). Bundan əlavə, Azərbaycan dilində o, rus və beynəlmiləl sözləri varvarizm və yad sözlər adlandırırdı. Azərbaycan zəhmətkeşlərinin İ.V. Stalinə məktubu nun mətnindən sitat gətirən İ.Həsənov qeyd edir ki, Azərbaycan dili Azərbaycan məktəblərindən az qala, qovulmuşdur. Dili kobudcasına təhrif hesab etmək olmaz. Bu, əksinqilabi fitnəkarlıq və böhtandır! Azərbaycan dilinin orfoqrafiyası işlənib hazırlanarkən İ.Həsənov digər vətən xainləri ilə birlikdə dilimizi ərəb, fars və osmanlı sözləri ilə doldurmağa çalışör, bununla da, qərbin, kapitalist ölkələrinin mədəniyyətini təbliğ



*İdris Həsənov*

[30]D. Halilov, *Alesker Kazım oğlu Alekperov'un anısına*, Sovyet arkeolojisi, 1966 S. 3, s. 9.

edirdi. APİ üçün müəllim kadrlarının hazırlanması işində də ziyankarlıq mövqeyindən fəaliyyət göstərir.[31]

1939-cu il iyunun 2-də İdris Məşədi Zaman oğlu Həsənov antisovet təşkilatında iştirakına görə 8 il müddətinə islah-əmək düşərgəsinə göndərilməsinə qərar verildi. Bu illər ərzində o uzaq Kolım diyarında infarkt keçirsə də, sağ qalmağı bacardı. 1946-cı ilin aprelin 3-də cəzasını çəkdikdən sonra Gəncəyə qayıdan professor İdris Həsənov 6 saylı məktəbdə müəllim kimi işləməyə başladı. 1948-ci ildə Beriya tərəfindən imzalanmış məxfi təlimata görə həbs olunub cəzasını çəkib sağ qalanları bir dəfəlik sürgün edirdilər. 1949-cu ilin dekabrın 21-də o, təhlükəli element kimi yenidən 1939-cu il ittihamına görə həbs olundu. O, ömürlük Krasnoyarsk diyarına sürgün edildi. İdris Həsənov bu sürgünə dözməyib 1950-ci il noyabrın 3-də özünü dənizə ataraq dünyasını dəyişdi.


*Qulam Bağırov*

Dilçi *Qulam Bağırovun* taleyidə İdris Həsənovun taleyinə oxşaroldu. Q.Bağırov SSRİ EA-nınAzərbaycan filialında dil bölməsinin rəhbəri (1933-1935-ciillər) sonardan isə EA-nınAzərbaycan filialının Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə director müavini idi. O müavin olduğu dövrdə direktor A.R.Zifeld-Simumyaqi idi. Kislovodskda Bəkir Çobanzadə həbs olunanda Qulam Bağırov da onunla birgə eyni palatada idi. Azərbaycana qayıtdıqdan sonra onu institutdan qovaraq, partiya sıralarından xaric etdilər. 1938-ci il aprelin 4-də həbs edilən Q.Bağırov istintaq zamanı ifadəsində bildirdi ki, 1936-cı ildəonu Vəli Xuluflu əks-inqilabi fəaliyyətə cəlb etmişdir. Halbuki Vəli Xuluflu ona qarşı heç bir ifadə verməmişdi.

1939-cu ildə 8 il islah əmək düşərgəsinə məhkum edilən Qulam Bağırov Kolımada sağ qalmağı bacardı və 1947-ci ildə vətənə qayıtdı. Ona Bakıda yaşamağa icazə vermədilər. Q.Bağırov Laçın rayonunda səhiyyə şöbəsində katib (1947-1948-ci illərdə) işləməyə məcbur oldu. Müharibədən sonra ikinci repressiya dalğasına məruz qalan İdris Həsənov kimi Q.Bağırov da köhnə ittihamlarla günahlandırıldı və 1949-cu ildə Qazaxıstanın Cambul vilayətinə ömürlük sürgün edildi, sürgün dövründə məktəblərdə rus dili və ədəbiyyatı müəllimi işlədi. Q.Bağırov 1956-cı ildə bəraət alaraq Bakıya qayıtmışdır.

*İncəsənət xadimləri* də repressiya maşınındaı canlarını qurtara bilmədilər.1938-ci il mart 17-də Bakı şərq konservatoriyasının qurucusu, pianoçu Xədicə Qayıbova əks-inqilabi müsavatçı təşkilata üzv olmaqda günahlandırılaraqhəyat yoldaşı Rəşid Qayıbovla birlikdə

[31]T.Kerimova, *Iz istorii Natsional'noy Akademii nauk Azerbaydzhana*, Takhsil, Baku 2005, c.344-346.

xalq düşməni kimi həbs olundu. X.Qayıbovanın həbsinə səbəb A.Fərəczadənin işgəncələr altında verdiyi ifadələr olmuşdu. Musiqiçinin evində Azərbaycan Xalq Cümhuriyyəti dövründə, eləcə də sovet hökumətinin dövründə xarici qonaqlar, türk zabitlər,həmçinin D.BünyadzadəvəF.Köprülüzadəkimi şəxslər musiqi gecələrinə yığışırdılar. Təbii ki, bu musiqi gecələrində siyasi mövzularda gündəmə gəlirdi. Bundan əlavə X.Qayıbovanın birinci həyat yoldaşının qardaşı AXC Hökumətinin İstanbuldakınümayəndəliyində katib işləmişdi. Xədicə Qayıbova ölüm hökmünə məhkum edilərək 1938-ci ilin oktyabrında güllələndi. 1957-ci ildə X.Qayıbovaya bəraət verildi.

Repressiyaya məruz qalan incəsənət xadimlərinin arasında Bakı Rus şöbəsinin Fəhlə Teatrının musiqi rəhbəri *Sergey Georgiyeviç Paniyev* də var idi. Stalin haqqında danışdığı lətifələr və etdiyi zarafatlara görə Paniev həbs olunub əks-inqilabi fəaliyyətdə ittiham olunurdu. Həbsi haqqında yazılan arayışda qeyd olunurdu ki, Paniev davamlı olaraq antisovet, anti-inqilabi fikirlər söyləyir,1936-cı ildə Yeni Avropa mehmanxanasının yeməkxanasında bufetçiyə pul verərək get Stalini öldür demişdi. Həbsindən bir neçə gün öncə Paniyev Azərbaycan Bəstəkarlar İttifaqından xaric olunaraq teatrdakı işindən uzaqlaşdırıldı. O.Paniyev 6 il həbsə məhkum edildi, yalnız 53 il sonra-1989-cu ildə bəraət aldı. Repressiyaya aktyorlar da məruz qalırdılar.1937-ci ilin dekabr ayında Azərbaycan Dram Teatrının aktyoru, Opera və Balet Teatrının baş rejissoru, Azərbaycan SSR xalq artisti Abbas Mirzə Şərifzadə həbs edildi.

Şərifzadə Abbas Mirzə Mirzə Əbdülrəsul oğlu (1893-1938) Şamaxı şəhərində müəllim ailəsində dünyaya göz açmışdır. 1895-ci ildə ailəsi ilə Şamaxıdan Bakıya köçənA.Şərifzadə 1906-cı ildə ibtidai məktəbi bitirəndən sonra gimnaziyaya qəbul olunur, lakin xəstələndiyindən təhsilini yarımçıq buraxır. 1908-ci ildən taleyini həmişəlik teatra bağlayanAbbas Mirzə, səhnədə ilk dəfə J.B.Molyerin Zorən təbib tamaşasında lal qız rolunda çıxış edir. Çox keçmədən o, Hüseyn Ərəblinski məktəbinin şagirdi və davamçısı kimi şöhrətlənir. 1910-cu ildən Səfa, Nicat xeyriyyə cəmiyyətlərinin teatr truppalarında çıxış edən Abbas Mirzə 1913-cü ildən Azərbaycanın rayonlarına, Mərkəzi Asiya, Şimali Qafqaz, Volqaboyu və İrana qastrol səfərinə çıxır,bacarıqlı rejissor kimi də tanınır. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra A.Şərifzadə Azərbaycan Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Milli Akademik Dram teatrı) fəaliyyət göstərərək milli teatrın təşəkkülünə böyük əmək sərf etdi. O, kino sənəti ilə də



*A.Şərifzadə*

yaxından maraqlandı, Bayquş (1924, rej. Q.Kravçenko) filmində xan rolunu yaratdı. Sonralar kinoda rejissor kimi fəaliyyət göstərən Abbas Mirzə Bismillah (1925), Hacı Qara (1929), Məhəbbət oyunu (1934) bədii filimlərini və Azərbaycana səyahət (1926) sənədli filmini çəkdi. A.Şərifzadə 1928-ci ildə Azərbaycan Dövlət Opera Teatrının baş rejissoru kimi Əsli və Kərəm, Aşıq Qərib və Şah İsmayıl operalarını tamaşaya qoydu.[32]

30 illik səhnə fəaliyyəti ərzində A.Şərifzadə milli, eləcə də dünya klassiklərinin əsərlərindən müxtəlif rollar oynadı, Cəfər Cabbarlının Aydın əsərində Aydın, Od gəlinində Elxan, Oqtay Eloğlunda Oqtay, H.Cavidin İblisində İblis, Knyazda Knyaz, Səyavuşda Səyavuş, Şeyx Sənanda Şeyx Sənan, V.Şekspirin, Hamletində Hamlet, Otelloda Otello, Maqbetdə Maqbet, A.Puşkinin, Dubrovskisində Dubrovski, M.Qorkinin, Həyatın dibində Baron və s. zəngin obrazlar qalareyası yaratdı.[33]

A.M.Şərifzadə minlərcə Azərbaycan ziyalısı kimi repressiyanın qurbanı oldu. O, 1937-ci il dekabrın 4-də 3240 № li orderlə Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsinə əsasən evində həbs olundu, axtarış zamanı onun evindən teatr qılıncı, iki teatrtapançası müsadirə edildi.[34]

A.M.Şərifzadənin həbsinə dair ittihamlar olduqca maraqlıdır. İstintaq sənədləri göstərir ki, 1937-ci il iyunun 24-də uzun işgəncələrdən sonra Ruhulla Axundov ifadə verir ki, Azdrama nın müdiri Əli Kərimov Abbas Mirzə Şərifzadəni və Mirzəağa Əliyevi antisovet təşkilata cəlb etmişdir. Oktyabrın 11-dəki dindirilmədə o, Bakıdakı antisovet təşkilatının üzvü kimi Dövlət Dumasının sabiq üzvü Məmməd Yusif Cəfərov, Yazıçılar İttifaqının üzvü Hüseyn Sadıq, şair Əhməd Cavad, yazıçı-Müsavatın İstanbuldakı konsulu Yusif Vəzirov (Çəmənzəminli), məşhur dissident şair Hüseyn Cavid, bədii texnikumdan Rəfibəyov, Novruz Ağayev, Əbdürrəhim Əşrəfov, Oruc Orucov, İsabəy Aşurov, Yazıçılar İttifaqından Atababa Musaxanlı, bəstəkar Üzeyir Hacıbəyov, xalq artistləri Mirzəağa Əliyev və Abbas Mirzə Şərif-zadənin adlarını *çəkir.* 1937-ci ilin iyunun 23-26-da dindirilən Əli Kərimov müstəntiqin artist A.M Şərifovun əksinqilabı təşkilatın üzvü olması barədə sualına rədd cavabı verir. Çox çəkmədən 1937-ci il oktyabrın 13-də Ə.Kərimov güllələnir.

[32]M. Əmrahov, *a.g.e.,* s.236.
[33]İlham Rəhimli, *Azərbaycan teatr tarixi,* Bakı 2005, s.120.
[34] https://az.wikipedia.org/wiki/Abbas_Mirz%C9%99_%C5%9E%C9%99rifzad%C9%99(12.12.2021).

A.M.Şərifzadə 1937-ci il dekabrın 9-da XDİK DTİ-nin III şöbəsi 2-ci bölməsinin rəisi V.A.May tərəfindən dindirilməyə başlanır, 1938-ci il yanvarın 9-da altıncı dəfə dindirilən A.Mirzə irəli sürülən ittihamları rədd edir. Qəzet satan, təxribatçı Əli Həsən Abbas oğlu, Mahmudov Mahmud, Həsən Ərşadi onun üzünə durur, İran konsulluğu ilə əməkdaşlıqda ittiham edilir.[35] Lakin sonralar məlum olur ki, bunlar saxta ittihamlar imiş.


Военная Коллегия
Верховного Суда
Союза ССР
31. октября 1955 г.
№ 4н 012175/55

Гр-ну ШАРИФОВУ Каратаю Аббасовичу
г.Баку, ул.Азербайджанская,
дом № 115, кв.3.

СПРАВКА

Дело по обвинению ШАРИФОВА Аббаса Мирза Расула оглы пересмотрено Военной Коллегией Верховного Суда СССР 17 сентября 1955 года.
Постановление тройки при НКВД Азербайджанской ССР от 19 октября 1938 года в отношении ШАРИФОВА А.М.Р.о. отменено и дело за отсутствием состава преступления прекращено.

ЗАМ.ПРЕДСЕДАТЕЛЯ ВОЕННОЙ КОЛЛЕГИИ
ВЕРХОВНОГО СУДА СОЮЗА ССР
ПОЛКОВНИК ЮСТИЦИИ
/В.БОРИСОГЛЕБСКИЙ/

1938-ci il oktyabrın 19-da xüsusi üçlük Şərifzadə Abbas Mirzə Rəsul oğlunu əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edir. Şərifzadə haqqında çıxarılan bu hökm, təxminən, bir ay sonra – noyabrın 16-da yerinə yetirilir.[36]

Atasının taleyi ilə maraqlanan A.M.Şərifzadənin qızı Firəngizə 1955-ci ildə məlumat verilir ki, atası 1941-ci ildə infarktdan vəfat etmişdir. Qəribə məntiqdir, 1938-ci ildə güllələnən adam 3 ildən sonra infarktdan vəfat edir. 1955-ci il oktyabrın 19-da-17 il sonraAbbas Mirzənin oğlu Qarataya bildirirlər ki, atasının hüquqları özünə qaytarılmış, bəraət verilmişdir.

Milliyyətcə acar olan Ülvi Rəcəb Molla oğlu Şaşıqzadə (1901-1938) 1901-ci ildə Batumda Batum (Batumi) yaxınlığındakı Canivri kəndində doğulub. Ülvinin atası Rəcəb bəy Avropanı gəzmişdi və oğlunun dünyagörüşünün formalaşmasında onun söhbətləri mühüm rol oynayır. On altı yaşında atasını itirən Ülvi təhsilə erkən yaşlarından başlayır. Xalası iləİstanbula gedərək orada təhsil alır. Birinci Dünya müharibəsi başlananda Ülvi təhsilini ataraq çörəkpulu qazanmaq məcburiyyətində qalır. 1918-ci ildə, müharibə qurtaranda Batuma qayıdır. Həmin il Hüseyn Ərəblinski geniş repertuarla Batumda qastrolda olur. Onlar tamaşalarıəsasən Artistlər cəmiyyətinin zalında oynayırdılar. Ülvi, Otello tamaşasma baxır və Ərəblinskinin Otellosu onu məftun edir. O, Azərbaycandan gəlmiş aktyorlarla yaxından tanış olur. Onların göstərdikləri bir heçə tamaşada epizod rolları oynayır. Gənc teatr həvəskar hətta Arşın mal alan operettasında, xəstələnən aktyorun əvəzinə, Soltan bəy rolunda səhnəyə çıxır. Beləliklə Ülvi Rəcəb Batumdakı teatrın kollektivinə daxil olur. 1922-ci ildə həmin teatr Tiflisə qastrola gəlir. Rustaveli teatrında iki tamaşa oynayan kollektiv qastrol pis təşkil olunduğuna görə səfərini yarımçıq saxlayır. Ülvi burada Tiflis Azərbaycan Teatrının yaradıcılarından İbrahim İsfahanlı ilə tanış olur. Batuma qayıtmayan Ülvi Rəcəb Tiflisdə qalır

---

[35] S. Aliyeva, *Pamyati aktora*, Zerkalo 2013, 20 marta.
[36] S. Aliyeva, *a.g.e.*,

və Zubalov evində fəaliyyət göstərən Azərbaycan dram cəmiyyəti"nə daxil olur. Ölülər (Mirzə Cəlil Məmmədquluzadə), Dağılan tifaq (Əbdürrəhim bəy Haqverdiyev), Aydın (Cəfər Cabbarlı) tamaşalarında çıxış edir. Az sonra Tiflis Dövlət Azərbaycan Dram Teatrının kollektivində çalışır. Uca boylu, aydın diksiyalı, emosional və coşğun, lirik və ehtiraslı gənc aktyor dramatik, faciə və operetta rollarında eyni uğur və bacarıqla çıxış edir.

1924-cü ilin yayında Tiflis Azərbaycan Teatrının baş rejissoru Aleksandr Tuqanov hökumətin dəvətilə Bakıya, Milli Dram Teatrına çağırılır. Ülvi Rəcəbin istedad və yaradıcılıq imkanlarına böyük ümid bəsləyən Tuqanov onu da Bakıya dəvət edir. Ülvi 1925-ci ildən Milli Dram Teatrında işləməyə başlayır. Tezliklə Ülvi Rəcəb teatrın aparıcı aktyoru Abbas MirzəŞərifzadə ilə dublyor olur.[37]

Mixail Yarovay (Düşmənlər, Konstantin Trenyov), Səyavuş (Səyavuş, Hüseyn Cavid), Polad Qartal (Polad Qartal, Aleksandr Korneyçuk), Qüdrət Arslan, Yaşar (Dönüş və Yaşar, Cəfər Cabbarlı), Vilyam Şekspirin Hamlet və Otello əsərlərində Hamlet və Otello, Hüseyn Cavidin Knyazında Anton, Mirzə Cəlil Məmmədquluzadənin Ölülər ində İsgəndər, Cəfər Cabbarlının Od gəlinində Elxan, Borodin (Qorxu, Aleksandr Afinogenov), Huinplen (Gülən adam, Viktor Hüqo), Jak (İki yetimə, Adolf D'Enneri və Germon), Voronov (İntervensiya, Lev Slavin), Mühəndis Eldəniz (Yanar dərə, Cabbar Məcnunbəyov). Ülvi Rəcəbin dramatik ifadə vasitələrində güclü müasirlik ruhu və heyranedici reallıq, səmimi təbiilik vardı.[38]

Azərbaycan Dram Teatrının artisti işləyən Ülvi Rəcəb əks-inqilabi burjua-millətçi təşkilatın üzvü kimi, 1937-ci il sentyabrın 15-də 1425 № li orderlə Azərbaycan SSR Cinayət Məcəlləsinin 72 və 73-cü maddələri ilə həbs edildi.Həyat (rejissor Ədil İsgəndərov) tamaşasında oynadığı Süleyman rolu ÜlviRəcəbin Akademik Teatr da son işi və son qələbəsi oldu.

Tədqiqatçılar məlumat verir ki, aktyor ictimaisosial tutumlu, mürəkkəb psixoloji əsaslı ikili xarakterli obraz yaratmışdı. Bildirilənə görə, Süleyman rolunun uğuru bütövlükdə tamaşa nın ideyabədii tutumunu, fikir dərinliyini, quruluşçu rejissorun ali məqsədini müəyyənləşdirir di. Tədqiqatçılar yazır ki, bu tamaşanın premyerasından xeyli müddət sonra Ülvi Rəcəbi vətən xaini damğası ilə tutdular.[39]

---

[37] İ. Rəhimli, *a.g.e.*, s.123.
[38] İ. Rəhimli, *a.g.e.*, s.123-124.
[39] https://az.wikipedia.org/wiki/Abbas_Mirz%C9%99_%C5%9E%C9%99rifzad%C9%99(12.1 2.2021).

İlk dindirilmədə Ü.Rəcəb ona qarşı irəli sürülən ittihamları rədd etsə də, 1937-ci ilin noyabrın 15-dəki dindirilmədə əks-inqilabi burjua-millətçi təşkilatın üzvü olduğunu, sovet hakimiyyəti əleyhinə üsyan mövqeyində dayandığını, 1936-cı ildə Azərbaycan K(b)P MK katibi M.C.Bağırov əleyhinə hazırlanan sui-qəsd haqqında məlumatıolduğunu etiraf etmişdir.

Ü.Rəcəbin işinə 1938-ci il yanvarın 2-də Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının bağlı iclasında baxıldı, 20 dəqiqə çəkən iclasda ona ölüm hökmü kəsildi, hökm həmin gün yerinə yetirildi.

1955-ci ildə bacıları Altun və Nevrestan Ülvinin taleyi ilə bağlı SSRİ Baş Prokuroruna müraciət etdilər. Həmin ilin avqust ayında Azərbaycan Dövlət Dram Teatrının direktoru Adil İsgəndərov və Xalq artistləri Mustafa Mərdanov, İsmayıl Dağıstanlı, Barat Şəkinskaya, Tağızadə və Mərziyyə Davudova onun haqqında Baş Hərbi prokurorluğa müsbət xasiyyətnamə göndədilər.

1955-ci il noyabrın 19-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Ü.Rəcəb haqqında 1938-ci il 2yanvar tarixli hökmü ləğv etdi, Şaşıqzadə Ülvi Rəcəb Molla oğlu bəraət aldı.[40]

Azərbaycan Dram Teatrının aktrisası *Panfiliya Tanailidi* də həbsə məruz qaldı. Onu İrana casusluqda və antisovet təbliğatında günahlandırıldılar. Sənədlərdən məlum olur, P.Tanailidi İranda qastrol səfərlərində olmuşdu. Keçmiş Bakı teatrlarının aktrisası Gövhər Qazıyeva İrandan Bakıya gələndə öz rəfiqəsi Tanailidiyə İran siqaretləri hədiyyə etmişdir. Tanailidi isə bu siqaretləri tərifləyərək *bizim siqaretlər isə zibildir* demişdi. İstintaq Tanailidinin öz rəfiqəsi ilə olan bu görüşünü casusluq məqsədilə olduğunu irəli sürmüşdür. Bundan başqa o həbs edilmiş və daha sonra kamerasında özünü asmış xalq düşməni Əhməd Triniç ilə də dostluq edirdi. Panfiliya Tanailidi sonadək özünün günahkar olduğunu qəbul etmədi. 15 dəqiqə davam edən məhkəmə prosesində P.Tanailidi güllələnməyə məhkum edildi. Hökm 1938-ci ilin oktyabrında yerinə yetirildi. P.Tanailidiyə 1957-ci ildə bəraət verilmişdir.

Azərbaycan incəsənəti-musiqi, kino, təsviri və dekorativ sənəti də 20-30-cu illərdə ağır dövrünü yaşadı. Milli siyasətdə baş verən əyintilər nəticəsində respublikanın görkəmli partiya və dövlət xadimləri, mədəniyyət və elm xadimləri məhv edildilər.

1937-ci ildə Azərbaycanda xalq düşməni kimi minlərlə adam güllələndi və ya Sibirə sürgün edildi. M.C.Bağırovun göstərişi ilə Azərbaycan Fövqəladə Komissiyasının sabiq sədri N.Rzayev, maarif xalq komissarları M.Şahbazov və M.Cuvarlinski, kinofoto sənayesi idarəsinin rəisi Q.Sultanov, Azərbaycan DİK idarə rəisinin müavini O.Nodev, Azərbaycan

[40] İ. Rəhimli, *a.g.e.*, s.238.

Fövqəladə Komissiyasının sabiq əməkdaşı İ.Şəmsov, ZSFSR XKS sədri Q.Musabəyov, Quba RİK-nin sabiq sədri M.Məmmədxanov, sabiq Azərbaycan SSR torpaq komissarı M.Hüseynov, ədliyyə komissarı A.Sultanova, torpaq komissarının sabiq müavini B.Qarin və başqaları həbs olunmuş və saxta ittihamlarla məhkum edildilər.

Ümumiyyətlə, 1937-1938-ci illərdə Azərbaycanda saxta itihamlarla 40 minə yaxın adam cinayət məsuliyyətinə cəlb edildi, 1937-1940-cı illərdə orta hesabla hər il 12 min adam həbs olundu. 30-40-cı və 50-ci illərin əvvəllərində 70 mindən çox adam cəza tədbirlərinin qurbanı oldu ki, onların 29 min nəfəri ziyalıdır. Şəxsiyyətə pərəstiş, Bağırovçuluq rejimi on minlərlə yaradıcı ziyalının, partiya və sovet işçisinin məhvinə səbəb oldu.

Bütün bu halların törədicisi M.C.Bağırovun ətrafında cəmləşmiş qeyri-millətlərin nümayəndələri, xüsusi ilə ermənilər idi. Acınacaqlı haldır ki, Bağırovun dövründə Azərbaycandakı 51 rayondan 31-də, o cümlədən Astara, Astraxanbazar, Zəngilan, Samux, Masallı, Lənkəran, Naxçıvan, Bakı və b. rayon və şəhərlərdə -XDİK-nin rayon bölməsinin başında ermənilər durdular.

**3-İctimai-siyasi fikir tarixi məsələlərinin öyrənilməsi**

Sovet qadağaları fonunda Azərbaycandaictimai-siyasi fikir tarixi məsələlərinin öyrənilməsinə zəif diqqət yetilirdi. Çap məhsullarının təhlili göstərir ki, hazırlanmış və çap edilmiş işlər arasında geniş profilli monoqrafik tədqiqatların xüsusi çəkisi lazımi səviyyədə deyildi. Elmi məhsullar arasında məhdud tədqiqat problemləri ilə bağlı kiçik məqalələr və ayrı-ayrı kitabçalar çoxluq təşkil edir. Azərbaycan dilində nəşr edilmiş kitabların sayı məhdud həcmdədir. Azərbaycanın tarixçiləri öz elmi işlərini populyarlaşdırmaq üçün ümumittifaq tribunasından nadir hallarda istifadə edirdilər. İctimai elmlərin problemlərinin tədqiqində lənglik, şəxsiyyətə pərəstişin hökm sürməsi, ictimai elmlərdə ehkamçılığın və əzbərçiliyin geniş yayılması, xüsusən, ictimai elmlər sahəsində marksizm qaydalarından kənara çıxmaq üçün göstərilən hər bir cəhd, tədqiqatçıların Azərbaycan xalqının keçmişi və sosialist bu günü barədə həqiqəti söyləmək istəyi amansızlıqla dəf edilir, uzun müddətli həbs cəzası, yaxud güllələnmə ilə nəticələnirdi. İttifaq rəhbərliyinin siyasəti, sosializmin nailiyyətlərini hər vasitə ilə mədh etmək, gerçəkliyi mübaliğəli şəkildə tərifləmək barədə göstərişləri hər yerdə rəhbər tutulurdu. Fərqli düşüncə tərzinin ən cüzi təzahürü belə sinfi düşmənin müqaviməti kimi qəbul edilirdi. Mövzudan və dövrdən asılı olmayaraq, bütün elmi-tədqiqat əsərlərində, hər şey hökmən ideoloji saflıq uğrunda mübarizə ilə, sosializmin düşmənlərinə qarşı sinfi mübarizəni gücləndirmək zərurəti ilə əlaqələndirilməli idi. Kütləvi repressiya kampaniyaları

yuxarıdan diktə edilən metodoloji standartlarla, ideoloji məqsədlər güdən konseptual müddəa və göstərişlərlə müşayiət olunurdu. 1938-ci ildə Stalinin ideoloji rəhbərliyi ilə dərc edilmiş ÜİK(b)P tarixinin qısa kursu humanitar elmlərin baza qanunu kimi qəbul edildi. Bu Qısa kurs"da öz əksini tapmış sxolastik sxemlər Kommunist partiyasının rəhbər rolunun, sosializmin müzəffər qələbələrinin" işıqlandırılması məqsədi daşıyır, sonrakı bir neçə onillik üçün ictimai tədqiqatların istiqamətini müəyyənləşdirirdi. 30-cu illərin II yarısından başlayaraq işıq üzü görən tədqiqatların nəticələri milli özünüdərkin tamamilə məhv edilməsi məqsədi güdür, respublikanın mənəvi həyatının imperiya mənafeyinə xidmətini əks etdirirdi.

## Nəticə

Hədsiz geniş miqyas almış zorakılıq, arxiv və digər informasiya mənbələrində xüsusi ciddi rejiminin tətbiq edilməsi ilə müşayiət olunan repressiv məcburiyyət elmi tədqiqatların həm keyfiyyətinə, həm də kəmiyyətinə hədsiz dərəcədə mənfi təsir göstərirdi. Bu cür araşdırmaların sayı sürətlə azalmaqda idi. İctimai ədəbiyyatda, xüsusən tarixə aid ədəbiyyatda boşluq yaranmışdı. SSRİ EAAzF sistemindəki institutların tez-tez yenidən təşkil edilməsi və birləşdirilməsi ilə nəticələnmiş ixtisarlar, digər tərəfdən də ictimai elmlərin çoxsaylı görkəmli nümayəndələrinə qarşı əsassız repressiyalar ilə nəticələnir, ictimai elmlər sahəsində elmi kadrların sayının azalması, respublikada elmin inkişafı yolunda ciddi çətinliklər yaradırdı.

1937-1938-ci illərdə məqsədyönlü şəkildə Azərbaycanın repressiyalara məruz qalmış genetik elmi fondun nümayəndələri arasında görkəmli alimlər, orijinal təfəkkür sahibləri *Ruhulla Axundov, Salman Mümtaz, Ələsgər Ələkbərov, İdris Həsənov, Rəşid İsmayılov, Vəli Xuluflu, Hüseynəli Biləndərli, Ağamir Məmmədov, Həsən İmanov, Əli Nazim (Mahmudzadə), Bəkir Çobanzadə, Əkrəm Cəfərov (Cəfər), Qazis Qubaydullin, Əhməd Əhmədov, Vahab Həsənzadə, Cavad Bağırov, Məmmədhəsən Baharlı (Vəlili), Aleksandr Bukşpan, Qəhrəman Qaraqaşlı, Mövsüm Salamov, Baləbəy Həsənbəyov, Mustafa Vəkilov, Məcid Quliyev, Yusif Rəhimli, Olqa Sokolovskaya, İsgəndər Sitaşi, Yakov Hummel, Artur Zifeldt-Simumyaqi, İbrahim Əminbəyli, Əli Hüseynzadə, Panteleymon Juze, İbrahim Uaruar, Zinyətşah Zakirov, Mariya Quliyeva, Abbas Yusifov, Baba Əsgərov, İsrafil Kazımov, Əbdüləziz Salamzadə, Əli Məmmədbəyov, Əlisöhbət Sumbatzadə, İsrafil Axundov, Boris Tixomirov, Maqsud Məmmədov, Əli Səbri Qasımov, Əhməd Kazımov, Əşrəf Quliyev, Məcid Həmzəyev, Əbülfəz Axundov, Mikayıl Hüseynov, Xaim Qarber, Anatoliy Çiçikalov* kimi yüzlərcə istedadlı alim, elm və maarif xadimləri vardı. Azərbaycanda ictimai elmlərin təməlini qoyan bu insanların hər biri özlərini bütünlüklə elmə, öz xalqına həsr etmişdi. *30-40-cı illərdə Stalin repressiyaları nəticəsində misilsiz itkilər verən təkcə ziyalılar deyil, bütün milli mədəniyyətimiz oldu.* Bununla belə, müharibədən əvvəlki illərdə alimlərin kütləvi şəkildə repressiya edilməsinə baxmayaraq, bütövlükdə bu illər ziyalıların, o cümlədən elmi kadrların yaranması ilə yadda qaldı, Azərbaycan ziyalılarının nümayəndələri respublikanın elmi, iqtisadi və mədəni inkişafına layiqli töhfələr verməyə çalışdılar.

**Ədəbiyyat siyahısı**

ALIYEVA, S., *Pamyati aktora,* Zerkalo 2013, 20 marta.
*Azərbaycan Respublikası Dövlət Arxivi,* (AR DA) Fond №57, siyahı №1, iş№21, vərəq – 71.

*Azərbaycan Respublikası Dövlət Arxivi,* (AR DA), 1, f.379, siy.16, iş.70, v.11, 225.

*Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi* (ARPİİSSA), Fond №, siyahı №88, iş №3, vərəq- 1-8.

*Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi* (ARPİİSSA), Fond №, siyahı, №88, iş №3, vərəq- 1-8.

Azerbaydzhanskaya muzyka, M.,1962 c.281.

ƏMRAHOV, M. – SALAHOV, M., - ƏSƏDOV, N., *Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoj itəhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941- ci illər),* Bakı 2007.

ƏMRAHOV, M., *XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı, Ali məktəblər üçün dərslik,* Bakı 2009.

Gaz. Bakinskiy rabochiy, 1992, 9 aprelya.

Gaz. Vyshka, 1991, 14 sentyabrya.

HALILOV, D., *Alesker Kazım oğlu Alekperov'un anısına,* Sovyet arkeolojisi, 1966 S. 3, s. 9.

https://az.wikipedia.org/wiki/Abbas_Mirz%C9%99_%C5%9E%C9%99rifzad%C9%99(12.12.2021).

https://az.wikipedia.org/wiki/Abbas_Mirz%C9%99_%C5%9E%C9%99rifzad%C9%99(12.12.2021).

KERIMOVA, T., *Iz istorii Natsional'noy Akademii nauk Azerbaydzhana,* Takhsil, Baku 2005.

*Kommunist* qəzeti, 1938, 11 aprel.

MUSAYEVA, T., *Kul'tura Azerbaydzhana na rubezhe epokh (20-30-yye gody KHKH stoletiya,* Baku 2015, c 101.

MUSAYEVA, T., *Bor'ba za razvitiye narodnogo obrazovaniya v Azerbaydzhane v gody pervoy pyatiletki,* Baku 1964, c.44-45.

NƏBIYEV, B. - SALMANOV, Ş., *Ədəbiyyat (ümumtəhsil məktəblərinin XI sinfi ücün dərslik), İkinci nəşri,* Bakı 1997.

*Obzor deyatel'nosti pravitel'stva Azerbaydzhana za,* 1922-1923 gg. , Baku 1924, c.235.

Otchet o deyatel'nosti pravitel'stva IV Vseazerbaydzhanskomu s"yezdu Sovetov v 1924 g. Baku 1925.

Otchetnyye materialy Bakinskogo komiteta AKP XIV partkonferentsii, Baku 1925, str. 40.

QASIMOV, C., *Yaddaşın bərpası*, Bakı 1999.

RƏHIMLI, İ., *Azərbaycan teatr tarixi,* Bakı 2005.

Revolyutsiya i natsional'nosti, 1936, №2, str. 64.

SHIROKOGOROV, I., Meditsinskiy fakul'tet Azerbaydzhanskogo Gosudarstvennogo Universiteta, (Istoricheskiy ocherk), Baku 1928, c. 3-4.

Su Azerbaydzhana, 1924, №6, c.145.